CONSEIL DE L'EUROPE

COUNCIL OF EUROPE

# COUR EUROPÉENNE DES DROITS DE L'HOMME
# EUROPEAN COURT OF HUMAN RIGHTS

Avropa Şurası/Avropa İnsan Hüquqları Məhkəməsi, 2012. Bu tərcümə Avropa Şurasının İnsan Hüquqları üzrə Etibar Fondunun dəstəyi ilə həyata keçirilib (www.coe.int/humanrightstrustfund). Məhkəmə tərcüməyə görə heç bir məsuliyyət daşımır. Əlavə məlumat almaq üçün bu sənədin sonunda verilmiş müəllif hüququna dair tam məlumata baxın.

© Council of Europe/European Court of Human Rights, 2012. This translation was commissioned with the support of the Human Rights Trust Fund of the Council of Europe (www.coe.int/humanrightstrustfund). It does not bind the Court. For further information see the full copyright indication at the end of this document.

© Conseil de l'Europe/Cour européenne des droits de l'homme, 2012. La présente traduction a été effectuée avec le soutien du Fonds fiduciaire pour les droits de l'homme du Conseil de l'Europe (www.coe.int/humanrightstrustfund). Elle ne lie pas la Cour. Pour plus de renseignements veuillez lire l'indication de copyright/droits d'auteur à la fin du présent document.

DÖRDÜNCÜ BÖLMƏ

**VİSER VƏ BİKOS BETEİLİQUNQEN GmbH AVSTRİYAYA qarşı İŞİ**

**(CASE OF WIESER AND BICOS BETEILIGUNGEN GmbH v. AUSTRİA)**

*(74336/01 saylı ərizə)*

QƏRAR

STRASBURQ

16 oktyabr 2007-ci il

**YEKUN**

*16/01/2008*

**Viser və Bikos Beteiliqunqen GmbH Avstriyaya qarşı məhkəmə işinə,**

Aşağıdakı tərkibdən:
*Nicolas Bratza*, *Sədr*,
*Snejana Botoucharova*,
*Josep Casadevall*,
*Giovanni Bonello*,
*Elisabeth Steiner*,
*Stanislav Pavlovschi*,
*Lech Garlicki*,
*Ljiljana Mijović*, *hakimlər,*
və *Lawrence Early*, *Bölmə Katibi,*
ibarət Palatada baxan Avropa İnsan Hüquqları Məhkəməsi,
25 sentyabr 2007-ci il tarixdə qapalı müşavirə keçirərək,
Həmin tarixdə qəbul edilən aşağıdakı qərarı çıxarmışdır:

# PROSES

1. İş İnsan hüquqları və əsas azadlıqlarının müdafiəsi haqqında Avropa Konvensiyasının ("Konvensiya") 34-cü maddəsinə əsasən Avstriya vətəndaşı cənab Qotfrid Viser *(Gottfried Wieser)* və baş ofisi Zalzburq şəhərində yerləşən məhdud məsuliyyətli cəmiyyət Bikos Beteiliqunqen GmbH *(Bicos Beteiligungen GmbH)* ("ərizəçilər") tərəfindən 3 avqust 2001-ci ildə Məhkəməyə təqdim edilmiş Avstriya Respublikasına qarşı ərizə (no 74336/01) əsasında açılmışdır.

2. Ərizəçiləri Zalzburqda vəkillik fəaliyyəti ilə məşğul olan xanım P.Patzelt təmsil etmişdir. Avstriya hökumətini ("Hökumət") onun nümayəndəsi Federal Xarici İşlər Nazirliyinin Beynəlxalq Hüquq Departamentinin rəisi Səfir F.Trautmansdorf *(Trauttmansdorff)* təmsil etmişdir.

3. Ərizəçilər ofislərində aparılan axtarış zamanı elektron məlumatın axtarışı və müsadirəsinin onların Konvensiyanın 8-ci maddəsi ilə müdafiə olunan hüquqlarını pozduğunu iddia etmişdir.

4. 16 may 2006-ci il tarixli qərarı ilə Palata bu ərizəni qəbuledilən elan etmişdir.

# FAKTLAR

## I. İŞİN HALLARI

5. Birinci ərizəçi 1949-cu ildə doğulub və Zalzburda vəkil kimi fəaliyyət göstərir. O, digər şirkətlərlə yanaşı, Novamed məhdud məsuliyyətli cəmiyyətinin yeganə sahibi olan xoldinq sayılan ikinci ərizəçinin sahibi və baş meneceridir.

6. 30 avqust 2000-ci ildə Zalzburq regional məhkəməsi (*Landesgericht*) Neapol dövlət prokurorluğunun hüquqi yardım haqqında müraciətinə (*Rechtshilfeersuchen*) əsasən ərizəçinin şirkətinin və Novamedin olduğu yerdə axtarışın keçirilməsi üçün order imzalamışdır. Hər iki şirkət birinci ərizəçinin vəkil ofisində yerləşirdi.

7. Məhkəmə İtaliyada bir çox şəxslər və şirkətlərə qarşı tibbi dərmanların qanunsuz ticarəti də daxil olmaqla, baxılmaqda olan cinayət işlərinin icraatı zamanı ərizəçinin şirkətinin 100% sahib olduğu Novamedə ünvanlanmış hesab-fakturaların (invoys) tapıldığını qeyd etmişdir. Bu səbəbdən məhkəmə şübhəli şəxslər və şirkətlərlə münasibətləri aşkara çıxaran bütün işgüzar sənədlərin müsadirə edilməsini əmr etmişdir.

### A. Ərizəçilərin ofislərində axtarış və sənədlər və məlumatların müsadirəsi

8. 10 oktyabr 2000-ci ildə eyni zamanda birinci ərizəçinin vəkil ofisi olan ərizəçinin şirkətində Zalzburq polisi İqtisadi Cinayətlər Departamentinin səkkiz - on zabiti (*Wirtschaftspolizei*) və Federal Daxili İşlər Nazirliyinin məlumatın təmin edilməsi üzrə ekspertləri (*Datensicherungsexperten*) tərəfindən axtarış keçirilmişdir.

9. Zabitlərin bir qrupu birinci ərizəçinin və Zalzburq Vəkillər Kollegiyasının nümayəndəsinin iştirakı ilə Novamed və ya Bikos ilə əlaqədar materialları tapmaq üçün hüquq ofisində axtarış aparıb. Bütün sənədlər müsadirədən qabaq birinci ərizəçiyə və vəkillər kollegiyasının nümayəndəsinə göstərilmişdir.

10. Birinci ərizəçi müsadirə edilmiş sənədin dərhal araşdırılmasına etiraz etdikdə, bu sənəd Cinayət Prosessual Məcəlləsinin 145-ci maddəsinin tələblərinə görə möhürlənib Zalzburq regional məhkəməsinə göndərilmişdir (*Strafprozeßordnung* – bax: aşağıda bənd 33). Bütün müsadirə olunmuş və ya möhürlənmiş sənədlər ərizəçi və axtarışı həyata keçirən zabitlər tərəfindən imzalanan axtarış protokolunda sadalanmışdır.

11. Paralel olaraq, digər zabitlərdən ibarət bir qrup birinci ərizəçinin kompyüter sistemini araşdırmış və bir neçə faylı disklərə köçürmüşdür. Müstəqil İnzibati Palata qarşısında verdiyi ifadəsinə əsasən (bax: aşağıda bənd 25) adətən kompyüter sistemlərinə baxan informasiya texnologiyaları

üzrə mütəxəssis müəyyən texniki yardım göstərmək üçün dəvət olunmuşdur, lakin o, təxminən yarım saatdan sonra yenidən çıxıb getmişdir. Vəkillər Kollegiyasının nümayəndəsi kompyüter sistemində axtarış haqqında məlumatlandırılmışdır və müəyyən bir vaxt ərzində bu axtarışda iştirak da etmişdir. Zabitlər kompyüter sistemində axtarışa xitam verdikdə onlar axtarış protokolu tərtib etmədən getmiş və müvafiq olaraq birinci ərizəçini bu axtarışın nəticələri barədə məlumatlandırmamışdır.

12. Daha sonra həmin gün ərizəçilərin elektron məlumatları üzrə axtarış aparmış polis zabitləri məlumatın qorunması haqqında protokol (data securing report) (*Datensicherungsbericht*) tərtib etmişlər. Birinci ərizəçinin kompyüter sistemlərinə dair bir sıra texniki incəliklərlə yanaşı, protokolda qeyd edilirdi ki, server tam olaraq köçürülməmişdir. Axtarış İtaliyada icraatı aparılan işdə adı keçən şirkətlərin və şübhəli şəxslərin adından istifadə etməklə aparılmışdır. Doxsan fayl daxil olan Novamed adlı papka və axtarılan məlumatlardan əlavə biri də tapılmışdır. Bütün məlumatlar disklərə köçürülmüşdür. Bundan başqa, silinmiş fayllar bərpa edilmişdir və nəticədə axtarılan məlumatlara aid bir sıra fayllar tapılmış və disklərə köçürülmüşdür.

13. 13 oktyabr 2000-ci ildə araşdırma aparan hakim (investigating judge) birinci ərizəçinin iştirakı ilə möhürlənmiş sənədləri açdı. Sənədlərdən bəzilərinin süræti çıxarılmış və sənədlərə əlavə edilmişdir, digərləri isə onların istifadəsinin birinci ərizəçinin peşə sirrini qorumaq öhdəliyinə zidd olduğu səbəbindən birinci ərizəçiyə geri qaytarılmışdır.

14. Təmin edilmiş məlumatları daşıyan disklər İqtisadi Cinayətlər Departamentinə verilmiş və orada çap edilmişdir. Həm disklər, həm də çap edilmiş fayllar daha sonra araşdırma aparan hakimə təqdim edilmişdir.

### B. Ərizəçinin Təhlil Palatasına şikayəti (Review Chamber)

15. Müvafiq olaraq 28 noyabr 2000-ci il və 11 dekabr 2000-ci il tarixlərində birinci ərizəçi və ərizəçi şirkət Zalzburq Regional Məhkəməsinin Təhlil Palatasına (*Ratskammer*) şikayətlər təqdim etmişdilər.

16. Onlar şikayət edirdilər ki, şirkətin sahibi və meneceri olan birinci ərizəçi eyni zamanda şirkətin payları olan bir sıra digər şirkətlərin hüquqşünası idi. Onlar şikayət etmişlər ki, bəzi zabitlərin elektron məlumatları araşdırarkən və surətlərini çıxararkən müşahidəsiz olması ofisində axtarış keçirilən və elektron məlumatı müsadirə edilən birinci ərizəçinin Cinayət Prosesual Məcəlləsinin 152-ci maddəsi ilə birgə götürüldükdə Vəkillər haqqında Qanunun (*Rechtsanwaltsordnung*) 9-cu maddəsinə əsasən peşə sirri hüququnu və vəzifəsini pozmuşdur. Ərizəçilər həmin məlumatların birinci ərizəçinin iştirakı ilə araşdırılan sənədlər ilə eyni məlumat daşıdığını iddia edirdi. Lakin elektron məlumata gəldikdə, birinci ərizəçiyə etiraz etməyə və disklərə möhür vurulmağı tələb etməyə imkan verilməmişdir.

17. Daha sonra onlar axtarış protokolunun axtarışın həmin hissəsini və həmçinin hansı elektron məlumatlarının köçürüldüyünü və müsadirə olunduğunu qeyd etmədiyini iddia edirdilər. Bundan başqa, axtarış protokolu zabitlərin yalnız üçü tərəfindən imzalanmışdır, protokol axtarışda iştirak edən bütün zabitlərin adlarını sadalamırdı və konkret olaraq, Federal Daxili İşlər Nazirliyinin məlumatın təmin edilməsi üzrə ekspertlərinin adlarını əks etdirmirdi.

18. 31 yanvar 2001-ci ildə Təhlil Palatası ərizəçilərin şikayətlərini rədd etdi.

19. O, birinci ərizəçinin kompyüter məlumatının konkret axtarış meyarları üzrə axtarışa məruz qaldığını müşahidə etdi. Bu axtarış meyarlarına cavab verən fayllar disklərə köçürülmüş və müsadirə edilmişdir.

20. Lakin bu müsadirənin Cinayət Prosessual Məcəlləsinin 152-ci maddəsinə zidd olduğunu müəyyən etməyə heç bir əsas yox idi: birinci ərizəçinin hüquq ofisində axtarışın keçirilməsi Novamed və Bikos şirkətlərinin nümayəndəsi kimi birinci ərizəçinin saxladığı sənədlərlə əlaqədar idi və bu səbəbdən vəkil-müştəri münasibətlərinə aid deyildi.

21. Daha sonra o, birinci ərizəçinin vəkil ofisində axtarışın elektron məlumatların axtarılması və müsadirə edilməsini əks etdirən axtarış haqqında qanuni orderə əsasən aparıldığını qeyd edirdi. Cinayət Prosessual Məcəlləsinin 145-ci maddəsində əks edilən aidiyyatlı şəxslərin dərhal araşdırma aparmağa etiraz etmək və müsadirə olunmuş məlumatı Regional Məhkəməyə göndərmək və Təhlil Palatasının qərarını almaq hüququ kimi prosessual təminatlar eynilə elektron məlumatın axtarışına da şamil edilirdi.

22. Lakin hazırkı işdə zabitlər yalnız birinci ərizəçinin müəyyən sənədləri möhürləmək və Regional Məhkəməyə göndərmək xahişlərini yerinə yetirmişdir. Bu sənədlərin bəziləri ərizəçinin peşə sirrini qorumaq vəzifəsini təmin etmək üçün məhkəmə tərəfindən geri qaytarılmışdır.

23. Bu səbəbdən ərizəçilərin şikayətlərinin əsassız olduğuna dair qərar çıxarılmışdır. Təhlil Palatasının qərarı 7 fevral 2001-ci il tarixdə qüvvəyə minmişdir.

### C. Ərizəçilərin Zalzburq Müstəqil İnzibati Palatasına şikayəti

24. Müvafiq olaraq 20 və 21 noyabr 2000-ci il tarixlərində birinci ərizəçi və ərizəçi şirkət Zalzburq Müstəqil İnzibati Palatasına (*Unabhängiger Verwaltungssenat*) şikayət göndərmişdilər. Onlar birinci ərizəçinin ofisində elektron məlumatların axtarışı və müsadirə edilməsinin qanunsuz olduğunu iddia edirdi.

25. 2 aprel, 11 iyun və 11 iyul 2001-ci il tarixlərində Müstəqil İnzibati Palata açıq dinləmələr keçirmiş və bir sıra şahidlərin ifadələrini dinləmişdir. Birinci ərizəçinin kompyüterlərinə cavabdeh olan informasiya texnologiyaları üzrə mütəxəssis qeyd etmişdir ki, o dəvət edilmişdi və ofisə

çatanda artıq axtarış başlamışdı. Yarım saatdan sonra o, yenidən getmişdir. Axtarışa məsul şəxs qeyd etdi ki, birinci ərizəçi öz kompyüter məlumatlarının axtarışına dair məlumatlandırılmışdır. Digər iki zabit birinci ərizəçinin kompyüter sistemlərinin axtarışının informasiya texnologiyaları üzrə mütəxəssis gələndə başladığını və Vəkillər Kollegiyasının nümayəndəsinin müəyyən vaxt ərzində iştirak etdiyini vurğuladı. Bunu Vəkillər Kollegiyasının nümayəndəsi də təsdiqlədi.

26. 24 oktyabr 2001-ci ildə Zalzburq Müstəqil İnzibati Palatası ərizəçilərin şikayətlərini rədd etdi. O, bu şikayətlərin axtarışa dair Cinayət Prosessual Məcəlləsinin müəyyən müddəalarının pozuntusu ilə əlaqədar olduğunu müəyyən etdi. Axtarışı həyata keçirən zabitlər bəlkə də bu müddəalara tam riayət etməmişlər. Lakin onlar axtarış orderi əsasında fəaliyyət göstərmiş və araşdırma aparan hakimin göstərişlərindən kənara çıxmamışlar. Bu səbəbdən də axtarış məhkəməyə aid idi. Beləliklə, qanuna uyğunluğun yoxlanılması Müstəqil İnzibati Palatanın səlahiyyətinə aid deyildir.

## II. MÜVAFİQ DAXİLİ QANUNVERİCİLİK VƏ TƏCRÜBƏ

### A. Axtarış və müsadirəyə dair Cinayət Prosessual Məcəlləsinin müddəaları

27. Cinayət Prosessual Məcəlləsinin (*Strafprozeßordnung*) 139 və 149-cu maddələri mülkiyyətin və şəxslərin axtarışına və əşyaların müsadirəsinə həsr edilib.

28. 139-cu maddənin 1-ci bəndi xüsusi olaraq axtarışın cinayət törətməkdə şübhəli bilinən şəxsin sözügedən mülkiyyətdə gizləndiyinə, yaxud orada konkret cinayət araşdırmasına aid olan əşyalar olmasına dair ağlabatan şübhə olduğu halda həyata keçirilməsini nəzərdə tutur.

29. 140-cı maddənin 1 və 2-ci bəndlərinə uyğun olaraq, axtarış ümumilikdə sözügedən şəxsin dindirilməsindən sonra həyata keçirilməlidir və yalnız axtarılan şəxs öz iradəsi ilə gəlmədiyi və ya axtarılan əşya(lar) könüllü olaraq təqdim edilmədiyi və axtarışa səbəb olan səbəblər aradan qaldırılmadığı hallarda həyata keçirilə bilər. Yubanma təhlükə yaradarsa belə dindirmə tələb olunmur.

30. 140-cı maddənin 3-cü bəndi axtarışın, bir qayda olaraq, yalnız hakim tərəfindən verilən əsaslandırılmış axtarış orderinin əsasında həyata keçirilə bildiyini qeyd edir.

31. 142-ci maddənin 2 və 3-cü bəndlərinə uyğun olaraq, axtarış zamanı axtarışa məruz qalan mülkiyyətin icarəçisi, yaxud o olmadıqda onun qohumu iştirak etməlidir. Protokol tərtib edilməlidir və bütün iştirak edənlər tərəfindən imzalanmalıdır.

32. Cinayət Prosessual Məcəlləsinin 143-cü maddəsinin 1-ci bəndi istintaqa aid və ya məhvetmə və ya müsadirəyə məruz qalan əşyalar tapıldıqda onlar sadalanmalı və toxunulmaz saxlanılması üçün məhkəməyə göndərilməli və ya götürülməli olduğunu nəzərdə tutur. Bu baxımdan toxunulmaz saxlanılan əşyaların zərfə qoyulmalı və məhkəmə tərəfindən möhürlənməli olduğunu və ya hər hansı əvəzetmə və ya çaşqınlığın qarşısını almaq üçün etiketlənməli (möhürlənməli) olduğunu nəzərdə tutan 98-ci maddəyə istinad edilir.

33. 145-ci maddədə deyilir:

> "1. Sənədlərdə axtarış keçirən zaman onların məzmununun kənar şəxslərə bəlli olmasının qarşısını almaq üçün tədbirlər görülməlidir.
>
> 2. Əgər sənədlərin sahibi onlar üzərində axtarışın keçirilməsini istəmirsə, onlar möhürlənməli və məhkəməyə təqdim edilməlidir; Nəzarət Palatası dərhal onların araşdırılmalı və ya geri qaytarılmalı olduğunu müəyyən etməlidir."

34. Alimlərin fikri ilə üst-üstə düşən (bax: Bertl/Vernier, *Grundriss des österreichischen Strafprozessrechts*, 7-ci nəşr) məhkəmələrin əvvəlki təcrübəsinə əsasən kağız sənədlərin axtarışa və müsadirəsinə dair müvafiq müddəalar *mutatis mutandis* elektron məlumatların da axtarışına və müsadirəsinə tətbiq edilir. Əgər məlumatın saxlanıldığı disklərin və ya hard disklərin sahibi onların axtarışa məruz qalmasına etiraz edirsə, məlumat daşıyıcıları möhürlənməlidir və Təhlil Palatası onların araşdırılıb-araşdırılmamasına dair qərar qəbul etməlidir.

## B. Vəkillərin peşə sirrinə aid müddəalar

35. Avstriyanın Vəkillər haqqında Qanununun (*Rechtsanwaltsordnung*) 9-cu maddəsi peşə sirrini saxlamaq vəzifəsi də daxil olmaqla vəkillərin peşə vəzifələrini tənzimləyir.

36. Cinayət Prosessual Məcəllənin 152-ci maddəsinin 1-ci bəndi vəkilləri, notariusları və biznes trestlərını öz peşə vəzifəsini icra edərkən onlara məlum olan məlumatlara dair şahid kimi ifadə verməkdən azad edir.

37. Oturuşmuş məhkəmə təcrübəsinə əsasən peşə sirrini daşıyan məlumatları əks etdirən sənədlər müsadirə oluna və cinayət işi üzrə istintaqda istifadə edilə bilməz.

38. Federal Ədliyyə Nazirliyinin 21 iyul 1972-ci il tarixli təlimatına (*Erlaß*) əsasən, müvafiq Vəkillər Kollegiyasının nümayəndəsi vəkilin ofisində axtarış keçirilərkən axtarışın peşə sirrinə toxunmamasını təmin etmək üçün iştirak etməlidir.

## C. Müstəqil İnzibati Palata tərəfindən yenidən baxış (Review)

39. Ümumi İnzibati Proses haqqında Qanunun (*Allgemeines Verwaltungsverfahrensgesetz*) 67a(1) maddəsinə uyğun olaraq, Müstəqil

İnzibati Palatanın digər vəzifələri ilə yanaşı, birbaşa inzibati səlahiyyətin və məhdudiyyətin (*Ausübung unmittelbarer verwaltungsbehördlicher Befehls- und Zwangsgewalt*) həyata keçirilməsindən irəli gələn öz hüquqlarının pozuntusunu bildirən şəxslərin şikayətlərini araşdırmaq səlahiyyəti vardır.

40. Məhkəmə orderini icra edərkən polis zabitlərinin hərəkətləri, əgər onlar açıq şəkildə öz səlahiyyətlərini aşmırsa, məhkəməyə aiddir. Yalnız sonuncu halda onların hərəkətləri birbaşa inzibati səlahiyyət və məhdudiyyətin həyata keçirilməsi olur və Müstəqil İnzibati Palata tərəfindən yenidən baxıla bilər.

# HÜQUQİ MƏSƏLƏLƏR

## I. KONVENSİYANIN 8-Cİ MADDƏSİNİN İDDİA EDİLƏN POZUNTUSU

41. Ərizəçilər elektron məlumatın axtarışı və müsadirəsindən şikayət edirdi. Onlar Konvensiyanın aşağıdakı 8-ci maddəsinə istinad edirdilər:

"1. Hər kəs öz şəxsi və ailə həyatına, mənzilinə və yazışma sirrinə hörmət hüququna malikdir.
2. Milli təhlükəsizlik və ictimai asayiş, ölkənin iqtisadi rifah maraqları naminə, iğtişaşın və ya cinayətin qarşısını almaq üçün, sağlamlığı, yaxud mənəviyyatı qorumaq üçün və ya digər şəxslərin hüquq və azadlıqlarını müdafiə etmək üçün qanunla nəzərdə tutulmuş və demokratik cəmiyyətdə zəruri olan hallar istisna olmaqla, bu hüququn həyata keçirilməsinə hakimiyyət orqanları tərəfindən müdaxiləyə yol verilmir."

### A. 8-ci maddənin tətbiqi ilə əlaqədar

42. Hökumət öz qeydlərini sözügedən axtarış və müsadirənin ərizəçilərin "şəxsi həyat" və "mənzili"nə müdaxiləsi kimi ehtimal üzərində qurmuşdur.

43. Məhkəmə xatırladır ki, vəkilin ofisində axtarış "şəxsi həyat" və "yazışma", eyni zamanda, potensial olaraq, fransız mətnində istifadə olunan "domicile" termininin geniş mənasında mənzilə müdaxilə hesab edilmişdir (bax: Nimec Almaniyaya qarşı işi *(Niemietz v. Germany)*, 16 dekabr 1992-ci il, §§ 29-33, A Seriyası no 251-B, və Tamosius Böyük Britaniyaya qarşı işi *(Tamosius v. the United Kingdom)* (qərardad), no 62002/00, ECHR 2002-VIII; bax: həmçinin vəkilin ofisində axtarışın onun "mənzilinə" hörmət etmək hüququna müdaxilə olmasını təsdiq edən Sallinen və digərləri Finlandiyaya qarşı işi *(Sallinen and Others v. Finland)*, no 50882/99, § 71, 27 sentyabr 2005-ci il). Şirkətin iş yerində aparılan axtarışın eyni zamanda onun "mənzilinə" hörmət hüququna müdaxilə etməsi kimi müəyyən edilib

(bax: Sosiete Kolas Est və digərləri Fransaya qarşı işi *(Société Colas Est and Others v. France)*, no 37971/97, §§ 40-42, ECHR 2002-III).

44. Hazırkı işdə ərizəçilər nə onların iş yerləri olan birinci ərizəçinin vəkil ofisi və ərizəçi şirkətin baş ofisində aparılan axtarışdan, nə də ki sənədlərin müsadirəsindən şikayət etmirlər. Onlar yalnız elektron məlumatların axtarışı və müsadirəsindən şikayət edirdi.

45. Məhkəmə axtarışın və elektron məlumatların müsadirəsinin ərizəçilərin 8-ci maddənin mənasına uyğun olaraq, öz "yazışma" hüququna müdaxilə olduğunu hesab edir (bax: yuxarıda qeyd edilən Nimec işi, § 32, vəkilin işgüzar yazışması məsələsində və yuxarıda qeyd edilən Sallinen və digərləri işi, § 71, vəkilin kompyüter disklərinin müsadirəsi məsələsində). "Mənzil" ifadəsinin şirkətin iş yerinə də şamil edildiyi yuxarıda qeyd edilən presedent hüququna əsaslanaraq, Məhkəmə fiziki şəxs olan birinci ərizəçi ilə hüquqi şəxs olan ikinci ərizəçi arasında "yazışma" ifadəsi baxımından hər hansı bir fərq qoymağa əsas görmür. Məhkəmə ərizəçilərin "şəxsi həyat"larına müdaxilənin olub-olmamasını araşdırmağı da zəruri hesab etmir.

46. Buna görə də Məhkəmə ərizəçilərin öz yazışma hüquqlarına müdaxilənin 8-ci maddənin 2-ci bəndinin tələblərinə cavab verdiyini müəyyən etməlidir.

### B. 8-ci maddəyə uyğun olma məsələsi

#### *1. Tərəflərin təqdimatları*

47. Məhkəmə ilk öncə özünün qəbuledilənlilik məsələsinə dair 16 may 2006-cı il tarixli qərarında Hökumətin işə mahiyyət üzrə baxılarkən ölkədaxili hüquq vasitələrinin tükəndirilməməsi ilə bağlı (as to non-exhaustion to the merits) etirazına qoşulduğunu müşahidə edir. Hökumət sənədlərin və ya məlumatın möhürlənməsi və onların istintaqda istifadə edilib-edilməməsinə dair məhkəmənin qərarını almaq üçün məhkəməyə göndərilməsi kimi Cinayət Prosessual Məcəlləsinin təmin etdiyi imkandan ərizəçilərin yararlanmadığını iddia edirdi. Ərizəçilər bu mövqe ilə razılaşmadılar və bildirdilər ki, axtarış elə bir formada aparıldı ki, onlar öz hüquqlarından səmərəli istifadə etmək imkanından məhrum oldular.

48. Mahiyyət məsələsinə gəldikdə, ərizəçilər elektron məlumatlar üzərində axtarış və müsadirənin qeyri-mütənasib olduğunu bəyan edirdilər. Onlar birinci ərizəçinin yalnız ərizəçi şirkətin meneceri deyil, eyni zamanda onun və Novamed şirkətinin nümayəndəsi olduğunu qeyd etdilər. Beləliklə axtarış nümayəndə kimi birinci ərizəçinin yazışmasının, misal üçün məktub və qeydlərinin açılmasına gətirib çıxarmışdır. Kağız sənədlərin axtarışı zamanı bütün belə sənədlər ya dərhal kənarlaşdırılmış, ya da peşə sirrinə aid olduğundan istintaqı aparan hakim tərəfindən möhürlənib ərizəçiyə qaytarılmışdır. Əksinə olaraq, elektron məlumatlar müvafiq prosedural

təminatlara riayət edilmədən müsadirə edilmişdir. Bu məsələyə görə ərizəçilər daxili vasitələrin tükəndirilməsinə dair təqdim etdikləri eyni arqumentlərə arxalanırdılar.

49. Ərizəçilər ərizəçi şirkətin hüquqlarının da pozulduğunu qeyd edirdi, çünki hansı məlumatın müsadirə edildiyinə nəzarət etmək imkanı onda yox idi. Bikos sözü üzrə axtarış istər-istəməz axtarış orderində müəyyən edilən məsələlərə aid olmayan məlumatların da ortaya çıxmasına gətirib çıxarmışdır. Cinayət Prosessual Məcəlləsində müəyyən edilən prosedur təminatlarına riayət edilməmişdir, çünki ərizəçi şirkətə məlumatı möhürləmək və istintaqı aparan hakimdən hansı məlumatın istintaq üçün istifadə edilib-edilməməsinə dair qərar əldə etmək imkanı verilməmişdir.

50. Hökumət ilk əvvəl ərizəçilərin yalnız elektron məlumatların axtarışından şikayət etdiklərini və onların arqumentlərinin əsasən birinci ərizəçinin vəkil kimi vəzifəsinə aid olduğunu və onun peşə sirrini qorumaq vəzifəsini mühafizə etmək üçün təminatların güman edildiyi kimi olmamasını, eyni zamanda ərizəçi şirkətin şikayətinin əsassız olduğunu qeyd edirdi.

51. Məhkəmənin presedent hüququna istinad edərək Hökumət elektron məlumatların axtarışının və müsadirə edilməsinin Cinayət Prosessual Məcəlləsində qanuni əsası olduğunu və cinayətin qarşısının alınması və sağlamlığın müdafiə edilməsi kimi qanuni məqsədlər güddüyünü iddia edirdi.

52. Müdaxilənin zəruri olmasına gəldikdə, Hökumət məlumatların axtarışının və müsadirəsinin qarşıya qoyulan legitim məqsədə mütənasib olduğunu iddia edirdi. Mübahisələndirilən tədbirlər məhkəmənin axtarış orderi əsasında başlanmışdır və həmin orderin qoyduğu konkret məsələlər ilə məhdudlaşırdı. Bundan başqa, Avstriya qanununda vəkilin ofisinin axtarışına dair konkret prosedural təminatlar müəyyən edilib. Bu təminatlara riayət edilib, çünki axtarış ərizəçinin və Vəkillər Kollegiyasının nümayəndəsinin iştirakı ilə aparılıb və onların rolu axtarışın birinci ərizəçinin peşə sirrini qorumaq vəzifəsinə zidd olmamasından əmin olmaq idi. Axtarış orderinə uyğun olaraq, birinci ərizəçinin kompyüter sistemlərində müəyyən köməkçi sözlər, məsələn, Novamed və Bikos kimi aidiyyatlı şirkətlərin və İtaliyada aparılan icraatdakı şübhəli şəxslərin adları vasitəsi ilə axtarış keçirilib. Birinci ərizəçi ikinci ərizəçinin nümayəndəsi olmadığından onların vəkil-müştəri münasibətlərinə təsir olmamışdır. Bundan başqa, Vəkillər Kollegiyasının nümayəndəsi birinci ərizəçinin kompyüter sistemində axtarış barədə məlumatlandırılmışdır və axtarış prosesi məlumatın qorunması protokolunda (data-securing report) əks edilmişdir. Bu protokolun axtarış zamanı deyil, həmin gün daha sonra tərtib edilməsi faktı əhəmiyyət kəsb etmirdi, çünki protokolun aparılmasının hansı məlumatın müsadirə edilməsi kimi əsas məqsədinə nail olunmuşdur.

## 2. *Məhkəmənin qiymətləndirilməsi*

### (a) Qanuna uyğunluq

53. Məhkəmə xatırladır ki, müdaxilənin "qanuna uyğun olan" kimi adlandırması üçün ilk əvvəl onun daxili qanunvericilikdə hər-hansı əsasının olması tələb olunur. Konvensiyanın 8-ci maddəsinin 2-ci bəndinə gəldikdə, "qanun" termini onun "formal" mənasında deyil, "məzmun" mənasında başa düşülməlidir. Yazılı qanunların əhatə etdiyi sahədə "qanun" onun məhkəmələr tərəfindən şərh edilmiş hüquq normasıdır (bax: yuxarıda qeyd edilən Sosiete Kolas Est və Digərləri işi (*Société Colas Est and Others*), § 43, daha sonrakı istinadlarla (with further references), və yuxarıda qeyd edilən Sallinen və Digərləri işi (*Sallinen and Others*), § 77).

54. Avstriyanın Cinayət Prosessual Məcəlləsi elektron məlumatın axtarışı və müsadirə edilməsinə dair konkret müddəaları özündə əks etdirmir. Buna baxmayaraq, bu Məcəllə əşyaların müsadirə edilməsi və əlavə olaraq sənədlərin müsadirə edilməsinə dair konkret qaydaları müəyyən edir. Daxili məhkəmələrin presedent hüququnda bu müddəaların elektron məlumatların axtarışı və müsadirə edilməsinə də şamil edilməsi təcrübəsi mövcuddur (bax: yuxarıda 34-cü bənd). Əslində ərizəçilər şikayət edilən tədbirlərin daxili qanunvericilikdə əsasının olmasını mübahisələndirmirlər.

### (b) Legitim məqsəd

55. Məhkəmə axtarış və müsadirənin dərman vasitələrinin qanunsuz ticarətində şübhəli bilinən üçüncü şəxslərə qarşı cinayət işi kontekstində əmr edildiyini müşahidə edir. Buna görə o, legitim məqsədə, konkret olaraq, cinayətin qarşısını almağa xidmət edirdi.

### (c) Demokratik cəmiyyətdə zəruri sayılma məsələsi

56. Tərəflərin arqumentləri müdaxilənin zəruriliyinə və konkret olaraq, görülən tədbirlərin legitim məqsədə mütənasib olub-olmaması sualına və Cinayət Prosessual Məcəlləsinin təmin etdiyi prosedur təminatlarına lazımı qaydada riayət edilib-edilməməsinə əsaslanırdı.

57. Oxşar işlərdə Məhkəmə milli qanunlarda və təcrübədə hər-hansı sui-istifadəyə və əsassızlığa qarşı adekvat və səmərəli təminatların olub-olmamasını araşdırmışdır (bax: misal üçün, yuxarıda qeyd edilən Sosiete Kolas Est və Digərləri işi (*Société Colas Est and Others*), § 48). Nəzərə alınan konkret meyarlar axtarışın hakim tərəfindən imzalanan orderə və ağlabatan şübhəyə əsaslanıb-əsaslanmaması, orderin hüdudlarının ağlabatan şəkildə dar olub-olmaması və vəkilin ofisində axtarış aparıldıqda peşə sirrinə aid materialların götürülməməsinə əmin olmaq üçün axtarışın müstəqil müşahidəçinin iştirakı ilə keçirilib-keçirilməməsi nəzərə alınır (bax: yuxarıda qeyd edilən Niemec işi, § 37 və yuxarıda qeyd edilən Tamusius işi).

58. Hazırkı işdə ərizəçilərin kompüter sisteminin axtarışı araşdırmanı aparan hakimin imzaladığı order əsasında bir sıra şirkət və şəxslərə qarşı dərman vəsaitlərinin qanunsuz ticarəti işi üzrə cinayət mühakiməsi aparan İtalyan rəsmilərinə hüquqi yardım kontekstində aparılmışdı. Axtarış 100% ərizəçi şirkətə mənsub olan Novamed şirkətinə ünvanlanan hesab-fakturaların tapılmasına arxalanırdı. Belə olan təqdirdə Məhkəmə axtarış orderinin ağlabatan şübhəyə əsaslandığını qəbul edir.

59. Məhkəmə, həmçinin, axtarış orderinin axtarılan sənəd və ya məlumatları İtaliyada icraatı aparılan işdə olan şübhəli şəxslər ilə əlaqələri ortaya çıxaran rəsmi sənədlər kimi təsvir edərək onları ağlabatan şəkildə məhdudlaşdırdığını müəyyən edir. Axtarış bu hüdudlardan çıxmamışdır, çünki zabitlər Novamed və ya Bikos, yaxud da şübhəli şəxslərin adlarını əks etdirən sənədləri və ya məlumatları axtarırdılar.

60. Bundan başqa, Cinayət Prosessual Məcəlləsi sənədlərin və elektron məlumatların müsadirə edilməsinə dair əlavə prosedural təminatlar da nəzərdə tutur. Məhkəmə Məcəllənin aşağıdakı müddəalarına diqqət yetirir:

(a) axtarış aparılan ofisin icarəçisi (sakini) iştirak etməlidir;

(b) axtarışın sonunda protokol tərtib edilməlidir və müsadirə olunan əşyalar sadalanmalıdır;

(c) əgər sahib sənədlərin və ya məlumat daşıyıcılarının müsadirə olunmasına etiraz edirsə, onlar möhürlənməli və onların istintaqa cəlb edilb-edilməməsinə dair qərarın verilməsi üçün hakimə təqdim edilməlidir; və

(d) əlavə olaraq, vəkilin ofisində aparılan axtarış üçün Vəkillər Kollegiyasının nümayəndəsinin iştirak etməsi tələb olunur.

61. Ərizəçilər Avstriya qanunu ilə nəzərdə tutulan təminatların yetərli olmamasını iddia etmir, lakin bu təminatlara hazırkı işdə məlumatların müsadirə edilməsi zaman riayət edilmədiyini bildirir. Məhkəmə ərizəçilərin ofisində axtarışın çox sayda zabitlərin həyata keçirdiyini qeyd edir. Bir qrup sənədlərin müsadirəsi ilə məşğul olmuş, digər qrup isə müəyyən axtarış meyarları istifadə etməklə kompyüter sistemində axtarış aparmış və məlumatları müsadirə edib çoxsaylı faylları disklərə köçürmüşdür.

62. Məhkəmə sənədlərin müsadirəsinə dair yuxarıda qeyd edilən təminatlara tam riayət edildiyini müşahidə edir: Vəkillər Kollegiyasının nümayəndəsinin hər-hansı sənədin müsadirə edilməsinə etiraz etdiyi zaman həmin sənəd möhürlənib zərfə qoyulurdu. Bir neçə gün sonra araşdırma aparan hakim ərizəçinin iştirakı ilə hansı faylların peşə sirri təşkil etdiyinə dair qərar qəbul etmiş və bu əsasla bir sıra sənədləri ərizəçiyə geri qaytarmışdır. Əslində ərizəçilər bundan şikayət etmirdilər.

63. Təəccüblüdür ki, hazırkı işdə eyni təminatlara elektron məlumatlar üçün riayət edilməmişdir. Bir sıra faktorlar göstərir ki, bu məsələyə dair ərizəçilərin hüquqlarının həyata keçirilməsi məhdudlaşdırılmışdır. Birincisi, baxmayaraq ki, Vəkillər Kollegiyasının üzvü kompüterdə aparılan axtarışda müvəqqəti olaraq iştirak etmişdi, o, əsasən sənədlərin müsadirə olunmasına nəzarət etmək ilə məşğul idi və elektron məlumatlara nəzarət etmək

funksiyasını lazımı qaydada yerinə yetirə bilməzdi. İkincisi, tətbiq edilən axtarış meyarlarını və köçürülən və müsadirə edilən faylları sadalayan protokol axtarışın sonunda deyil, yalnız həmin gün sonradan tərtib edilmişdir. Bundan başqa, zabitlər göründüyü kimi işlərini qurtardıqdan sonra getmiş və birinci ərizəçini və ya Vəkillər Kollegiyasının nümayəndəsini axtarışın nəticələri barədə məlumatlandırmamışdılar.

64. Doğrudur ki, birinci ərizəçi ümumi qaydada axtarışın əvvəlində məlumatların köçürüldüyü disklərin zərfə qoyulmasını və istintaqı aparan hakimə təqdim edilməsini xahiş edə bilərdi. Lakin Cinayət Prosessual Məcəlləsinin axtarışın sonunda protokolun tərtib edilməsini və müsadirə olunmuş əşyaları sadalanmasını nəzərdə tutduğu üçün o, bu prosedura riayət ediləcəyini gözləyə bilərdi. Bu baş vermədiyindən o, öz hüquqlarından səmərəli şəkildə istifadə etmək imkanına malik olmamışdır. Beləliklə, Hökumətin ölkədaxili vasitələrin tükəndirilmədiyinə dair etirazı rədd edilməlidir.

65. Birinci ərizəçiyə gəldikdə, axtarışın aparılmasının belə tərzi onun peşə sirrini qorumaq hüququnun pozulması riski ilə toqquşurdu. Məhkəmə bu riskə xüsusi önəm verir, çünki bu risk ədalət mühakiməsinin lazımı qaydada icraatına təsir göstərə bilər (bax: yuxarıda qeyd edilən Nimec işi, § 37). Dövlət orqanları və Hökumət birinci ərizəçinin ərizəçi şirkətin nümayəndəsi olmadığını və müsadirə olunan məlumatın vəkil-müştəri münasibətlərinə aid olmadığını iddia edirdi. Doğrudur ki, birinci ərizəçi Məhkəmə qarşısında dediyi arqumentlərə əks olaraq, dövlət orqanları qarşısında ərizəçi şirkətin, nə də ki Novamedin nümayəndəsi olduğunu iddia etmirdi. Lakin proses boyu o, ikinci ərizəçinin paylara sahib olduğu çoxsaylı şirkətlərin nümayəndəsi olduğunu iddia edirdi. Bundan başqa, Hökumət ərizəçilərin müsadirə edilmiş elektron məlumatların hardasa eynilə kağız sənədlərdəki məlumatları (bunlardan bəziləri birinci ərizəçiyə istintaqı aparan hakim tərəfindən peşə sirrinə aid olduğu üçün qaytarılmışdır) əks etdirdiyi ifadəsini mübahisələndirmirdi. Ona görə müsadirə edilmiş elektron məlumatların da belə məlumatı əks etdirdiyi ağlabatan şəkildə ehtimal oluna bilərdi.

66. Nəticədə Məhkəmə hər-hansı sui-istifadənin yaxud əsassızlığın qarşısını almağa və vəkilin peşə sirrini müdafiə etmək vəzifəsini qorumağa yönələn bəzi prosedur təminatlarının polis zabitləri tərəfindən riayət edilməməsi faktı birinci ərizəçinin elektron məlumatlarının axtarışının və müsadirənin legitim məqsədə qeyri-mütənasib olduğunu müəyyən edir.

67. Bundan başqa, Məhkəmə vəkilin peşə sirrini qorumaq vəzifəsinin həmçinin müştəriləri qorumaq məqsədi güddüyünü müşahidə edir. Birinci ərizəçinin ikinci ərizəçi tərəfindən paylarına sahib olduğu şirkətləri təmsil etməsinə və müsadirə olunan məlumatların peşə sirrinə aid olan bəzi məlumatları özündə əks etdirməsinə dair yuxarıdakı nəticələrinə diqqət yetirərək Məhkəmə ikinci ərizəçiyə gəldikdə, fərqli qənaətə gəlmək üçün hər hansı səbəb görmür.

68. Beləliklə, hər iki ərizəçiyə münasibətdə Konvensiyanın 8-ci maddəsi pozulmuşdur.

## II. KONVENSİYANIN 41-Cİ MADDƏSİNİN TƏTBİQİ

69. Konvensiyanın 41-ci maddəsində deyilir:
"Əgər Məhkəmə Konvensiyanın və ona dair Protokolların müddəalarının pozulduğunu, lakin Razılığa gələn Yüksək Tərəfin daxili hüququnun yalnız bu pozuntunun nəticələrinin qismən aradan qaldırılmasına imkan verdiyini müəyyən edirsə, Məhkəmə zəruri halda, zərərçəkən tərəfə əvəzin ədalətli ödənilməsini təyin edir."

### A. Zərər

70. Maddi zərərin başlığı altında birinci ərizəçi müştərilərin itirilməsinə görə 2000-ci ildən bəri illik 4,000 € tələb etmişdir. O qeyd edib ki, peşə sirrini pozmadan sübut təqdim edə bilməz. Bundan əlavə, ərizəçi ona dəyən qeyri-maddi zərər üçün 10,000 € tələb edib, çünki hadisələr nəticəsində onun vəkillik nüfuzuna xələl gəlib.

71. Ərizəçi şirkət vurulan maddi zərər üçün 20,211.56 € təzminat tələb edib. Şirkət iddia edib ki, holdinq şirkəti olaraq məlumatların müsadirə edilməsi nəticəsində onun adına ciddi xələl gəlib. Nəticə etibarilə şirkət yeni ad altında yenidən qurulmalıdır və nominal sərmayə üçün 17,500 € və hüquqi məsələlərlə bağlı məbləğin ödənilməsi üçün 2,711.56 € tələb olunur. O, qeyri-maddi zərərlə bağlı heç bir tələb irəli sürməyib.

72. Hökumət baxılan məsələdə pozulma ilə ərizəçilərin iddia etdiyi zərər arasında səbəbiyyət əlaqəsinin olmadığını iddia etmişdir.

73. Ərizəçinin maddi ziyanla bağlı iddiaları ilə əlaqədar Məhkəmə aparılan axtarış və elektron məlumatların müsadirəsinin Konvensiyanın 8-ci maddəsinə uyğun aparıldığı təqdirdə ərizəçilərin nüfuzuna necə təsir göstərəcəyinə dair mülahizələr edə bilmədiyini qeyd edir (bax: *mutatis mutandis,* yuxarıda qeyd olunan Sosiete Kolas Est və Digərləri işi, § 54). Beləliklə, Məhkəmə bu başlıq altında kompensasiya təyin etmir.

74. Bununla belə, Məhkəmə qəbul edir ki, birinci ərizəçiyə axtarışın və məlumatların müsadirəsinin tərzindən mənəvi əziyyət və məyusluq formasında qeyri-maddi ziyan dəyib. Bərabər əsasda qiymətləndirmə apararaq və oxşar işdə verilən məbləği nəzərə alaraq (bax: yuxarıda qeyd olunan Sallinen və başqaları işi, §114), Məhkəmə birinci ərizəçiyə qeyri-maddi zərər başlığı altında 2,500 € təzminat təyin edir.

### B. Məhkəmə xərcləri

75. Birinci ərizəçi ölkədaxili icraata 9,204.52 € və Konvensiya icraatına müraciət üçün 6,762.63 € olmaqla ümumilikdə məhkəmə xərcləri kimi 15,967.15 € məbləği tələb etmişdir. Bu məbləğə əlavə dəyər vergisi (ƏDV) də daxildir.

76. Hökumət ölkədaxili icraatla bağlı sadalanan xərclərin həqiqətən mövcud olduğunu qəbul edir. Lakin onlar tələb edilən məbləğlərin həddindən çox olduğunu bildirmişlər, belə ki, bu məbləğlər münasib daxili qanunlarla və hüquqşünasların məvaciblərini tənzimləyən qaydalarla uyğun gəlmir. Konkret olaraq, tələb edilən 4,858 € əvəzinə yalnız 1,486.80 € Zalzburq Müstəqil İnzibati Palatasındakı icraata uyğundur. Bundan başqa, Hökumət iddia etmişdir ki, Konvensiya icraatı ilə bağlı iddia edilən xərclər həddindən artıq çoxdur. Təkcə 2,289.96 € məbləği uyğundur.

77. Məhkəmə təkrar edir ki, Konvensiyanın pozulması halı aşkarlanarsa ərizəçiyə pozuntunun qarşısını almaq və ya onun əvəzinə ödəmək üçün icraata çəkilən və ağlabatan miqdarda olan məbləği təyin edə bilər (bax: yuxarıda qeyd olunan Sosiete Kolas Est və Digərləri işi, § 56).

78. Məhkəmə qeyd edir ki, birinci ərizəçinin tələb etdiyi xərclərin real xərclər olduğu mübahisə edilmir. Lakin o hesab edir ki, tələb olunan məbləğ ağlabatan miqdarda deyil. Əlində olan məlumatlara əsasən və oxşar işlərdə təyin olunan məbləğləri nəzərə alaraq Məhkəmə bütün başlıqlar altında xərcləri əhatə edən 10,000 € məbləğində təzminatı ağlabatan hesab edir. Bu məbləğə ƏDV daxildir.

### C. Gecikdirmə faizi

79. Məhkəmə gecikdirmə faizinin Avropa Mərkəzi Bankının kredit faizinin yuxarı həddinə əsaslanmasını və buraya üç faiz əlavə edilməsini uyğun hesab edir.

BU SƏBƏBLƏRƏ GÖRƏ MƏHKƏMƏ

1. Yekdilliklə Hökumətin daxili vasitələrin tükəndirilməməsi ilə bağlı ilkin etirazını *rədd edir*;
2. Yekdilliklə birinci ərizəçi ilə bağlı Konvensiyanın 8-ci maddəsinin pozulmasını *qərara alır*;
2. Dördə qarşı üç səslə ikinci ərizəçi ilə bağlı Konvensiyanın 8-ci maddəsinin pozulmasını *qərara alır*;
3. Yekdilliklə *qərara alır* ki,
(a) cavabdeh dövlət birinci ərizəçiyə Konvensiyanın 44-cü maddəsinin 2-ci bəndinə əsasən bu qərarın qəti qərara çevrildiyi tarixdən sonra üç ay ərzində vurulan qeyri-maddi ziyana görə 2,500 € (iki min beş yüz avro) və məhkəmə xərclərinə görə 10, 000 € (on min avro) ödəməlidir;
(b) yuxarıda qeyd olunan üç aylıq müddət bitdikdən sonra öhdəlik icra edilənə qədər yuxarıda qeyd edilən ödənilməli məbləğlərin üzərinə Avropa Mərkəzi Bankındakı borc dərəcəsinin yuxarı həddinə bərabər olan adi faiz məbləği əlavə olunmalı və onun da üzərinə daha üç faiz əlavə edilməlidir.
4. Yekdilliklə əvəzin ədalətli ödənilməsi ilə bağlı ərizəçilərin qalan tələblərini *rədd edir*.

İngilis dilində hazırlanıb və 16 oktyabr 2007-ci il tarixində Məhkəmə Reqlamentinin 77-ci qaydasının 2-ci və 3-cü bəndinə əsasən yazılı şəkildə açıqlanıb.

Lawrence Early Nicolas Bratza
*Katib* *Sədr*

Konvensiyanın 45-ci maddəsinin 2-ci bəndinə və Məhkəmə Reqlamentinin 74-cü Qaydasının 2-ci bəndinə uyğun olaraq, bu qərara Hakimlər Bratsa, Kasadeval və Miyoviçin birgə xüsusi rəyi əlavə olunur.

N.B.
T.L.E.

**©Avropa Şurası/Avropa İnsan Hüquqları Məhkəməsi, 2012.**

Avropa İnsan Hüquqları Məhkəməsinin rəsmi dilləri ingilis və fransız dilləridir. Bu tərcümə Avropa Şurasının İnsan Hüquqları üzrə Etibar Fondunun dəstəyi ilə həyata keçirilib (www.coe.int/humanrightstrustfund). Məhkəmə tərcüməyə və onun keyfiyyətinə görə heç bir məsuliyyət daşımır. Tərcüməni Avropa İnsan Hüquqları Məhkəməsinin presedent hüququnu təşkil edən işlərin daxil olduğu HUDOC məlumat bazasından (http://hudoc.echr.coe.int) və ya Məhkəmənin razılığı ilə yerləşdirilən istənilən digər məlumat bazasından yükləmək olar. Tərcüməni qeyri-kommersiya məqsədlərilə bu şərtlə yenidən nəşr etmək mümkündür ki, məhkəmə işinin tam adı, yuxarıda göstərilmiş müəllif hüququna dair qeyd və Avropa Şurasının İnsan Hüquqları üzrə Etibar Fonduna istinad göstərilsin. Tərcümənin hər hansı bir hissəsindən kommersiya məqsədi ilə istifadə etmək nəzərdə tutularsa, bu ünvana müraciət etmənizi xahiş edirik publishing@echr.coe.int.

.

**© Council of Europe/European Court of Human Rights, 2012.**

The official languages of the European Court of Human Rights are English and French. This translation was commissioned with the support of the Human Rights Trust Fund of the Council of Europe (www.coe.int/humanrightstrustfund). It does not bind the Court, nor does the Court take any responsibility for the quality thereof. It may be downloaded from the HUDOC case-law database of the European Court of Human Rights (http://hudoc.echr.coe.int) or from any other database with which the Court has shared it. It may be reproduced for non-commercial purposes on condition that the full title of the case is cited, together with the above

copyright indication and reference to the Human Rights Trust Fund. If it is intended to use any part of this translation for commercial purposes, please contact publishing@echr.coe.int.

**© Conseil de l'Europe/Cour européenne des droits de l'homme, 2012.**

Les langues officielles de la Cour européenne des droits de l'homme sont le français et l'anglais. La présente traduction a été effectuée avec le soutien du Fonds fiduciaire pour les droits de l'homme du Conseil de l'Europe (www.coe.int/humanrightstrustfund). Elle ne lie pas la Cour, et celle-ci décline toute responsabilité quant à sa qualité. Elle peut être téléchargée à partir de HUDOC, la base de jurisprudence de la Cour européenne des droits de l'homme (http://hudoc.echr.coe.int), ou de toute autre base de données à laquelle HUDOC l'a communiquée. Elle peut être reproduite à des fins non commerciales, sous réserve que le titre de l'affaire soit cité en entier et s'accompagne de l'indication de copyright ci-dessus ainsi que de la référence au Fonds fiduciaire pour les droits de l'homme. Toute personne souhaitant se servir de tout ou partie de la présente traduction à des fins commerciales est invitée à le signaler à l'adresse suivante : publishing@echr.coe.int